

Kaliforniya Universiteti araşdırma aparıb.

ABŞ-ın Kaliforniya Universitetində 90 yaşlı 1600 nəfər üzərində aparılan araşdırmaya görə az miqdarda qəhvə və spirtli içki içənlər içməyənlərlə müqayisədə daha çox yaşayır.

Dalga TV Türkiyə mediasına istinadən xəbər verir ki, araşdırmada 70 yaşlarında artıq çəkisi olanların da daha çox yaşadığı məlum olub.

Kaliforniya Universitetinin “Irvine” yaddaş pozuntuları və nevroloji xəstəliklər institutunun araşdırması 2003-cü ildə başlayıb.

Mütəxəssislərin altı aydan bir keçirdikləri təcrübədə nevroloji və psixi xəstə olan şəxslərin qidalanması, vərdişləri, tibbi keçmişləri, qəbul etdikləri dərman və digər şeylər barədə məlumat toplanıb.

Araşdırmalarla bağlı ilkin nəticələr isə belədir:

Müəyyən miqdarda spirtli içki və qəhvə içənlər içməyənlərə nisbətən daha çox yaşayır.

90-dan çox yaşı olan insanların 40 faizi ağlını itirə bilər. Onların təxminən 80 faizi fiziki məhdudiyyətlidir. Bu əlamətlər qadınlarda kişilərdən daha çox aşkar edilib.

Ağlını itirən xəstələrin 90%-də bunun səbəbi tapılmayıb.